# Mənalı həyat yolu

***İnsanlığın tarixinə nəzər salmaq, onun ayrı-ayrı inkişaf mərhələlərinə səyahət etmək olduqca mənalı və maraqlıdır. Çünki bu inkişaf yollarında hər bir insanın keçdiyi mənalı həyat yollarının ayrı-ayrı səhifələri öz əksini tapmışdır. Müasir zəmanəmizdə ayrı-ayrı insanların xüsusilə alimlərin keçdiyi dəyərli ömür yolunu öyrənmək və təbliğ etməyin müasir dövrümüzdə olduqca mühüm əxlaqi, mənəvi və ictimai əhəmiyyəti vardır. Xüsusilə inkişaf etməkdə olan gənc nəsil üçün akademik Mahmud Kərim oğlu Kərimovun keçdiyi mənalı həyat və elm yolu örnək olmalıdır.***



Mahmud Kərim oğlu Kərimovun dünən, oktyabrın 18-də 70 yaşı tamam oldu. İrəvan şəhərində anadan olmuş Mahmud kiçik yaşlarından ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Orta məktəbi bitirdikdən sonra o, əla qiymətlərlə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini bitirmiş və hərbi xidmətini başa vurduqdan sonra 1973-cü ildən etibarən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda mühəndis vəzifəsində çalışmışdır. Mahmud Kərimov 1975 -1978-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Radiasiya Tədqiqatlar sektorunun aspiranturasında təhsil almış, 1978 -1984-cü illərdə Radiasiya tədqiqatı sektorunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib və laboratoriya rəhbəri vəzifəsində işləmiş, 1984 -2001-ci illərdə isə həmin sektorun direktoru vəzifəsində çalışmışdır.

Mahmud Kərimov 1979-cu ildə fizika riyaziyyat elmləri namizədi, 1989-cu ildə isə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini, 2000-ci ildə professor elmi adını almışdır. 2001-ci ilin iyununda Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və akademiyanın prezidenti vəzifəsinə seçilmiş Mahmud Kərimov ömrünün sonuna kimi bu vəzifəni layiqincə icra etmişdir.

Mahmud Kərimovun apardığı elmi tədqiqat işləri respublikamızda fizika elminin inkişafına qiymətli töhfələr vermiş, onun zəngin elmi fəaliyyəti nəticəsində radiasiya fizikası və informatika sahələrinin yeni biliklərlə zənginləşməsində mühüm rol oynamışdır. Alimin elmi tədqiqatlarının başlıca istiqaməti dielektriklər fizikası ilə bağlıdır, onun bir çox istiqamətlər üzrə müəyyən etdiyi metodlar və əldə etdiyi elmi nəticələr həmişə öz aktuallığı, fundamental-nəzəri və tətbiqi əhəmiyyəti ilə seçilmiş və alimlərin marağına səbəb olmuşdur. Mahmud Kərimov nüvə və radiasiya təhlükəsizliyi sahəsində elmi-texniki problemlərin həlli baxımından respublikamız üçün böyük əhəmiyyət kəsb edən radioekologiya və radiasiya materialşünaslığı istiqamətlərində də elmi tədqiqatlar aparırdı. Onun uzun müddət rəhbərlik etdiyi Radiasiya Tədqiqatları sektoru akademiyanın nüfuzlu institutlarından birinə çevrilərək beynəlxalq aləmdə sanballı elmi qurum kimi qəbul olunmuşdur.

Mahmud Kərimov Beynəlxalq Atom Enerjisi Agentliyi ilə işbirliyi quraraq radiasiya tədqiqatları ilə bağlı bir neçə mühüm layihədə respublika alimlərinin fəal iştirakını təmin etmişdir. Azərbaycanın bir çox nüfuzlu təşkilatda təmsilçisi olaraq o, ətraf mühitin zərərli faktorlarının fizikası və kimyası ilə bağlı mühüm layihələrin gerçəkləşməsində də öz səylərini əsirgəmirdi. O, həmçinin MDB ölkələri və türkdilli dövlətlərin atom enerjisindən sülh məqsədi ilə istifadəsi üzrə komissiyalarının üzvü idi.

Mahmud Kərimovun araşdırmalarının nəticələri ölkəmizdə və onun hüdudlarından kənarda nəşr edilmiş, 200-ə yaxın elmi əsərdə öz əksini tapmışdır. O, elmi nailiyyətlərinə görə çoxsaylı patent və müəlliflik şəhadətnamələri almışdır. Alim mötəbər beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir. Mahmud Kərimov yüksək ixtisaslı elmi kadrların hazırlığı prosesində həm elmi rəhbər, həm də müvafiq ixtisaslaşmış şuraların üzvü kimi yaxından iştirak edirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçildiyi gündən akademik Mahmud Kərimov ölkəmizdə elmin təşkili və idarə olunması prosesinə başçılıq edərək müstəsna xidmətlər göstərmişdir. O, elmi və elmi-təşkilati fəaliyyəti ilə müstəqillik illərində ölkənin əsas intellektual potensialının cəmləşdiyi Milli Elmlər Akademiyasının respublikanın sosial-iqtisadi inkişafında rolunun artırılmasında, mədəni-intellektual imkanlarımızın genişləndirilməsində xüsusi rol oynamışdır. Onun rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının strukturu müasir dövrün tələbləri baxımından modernləşməyə başlamış və təkmilləşdirilmiş, maddi-texniki bazası və kadr potensialı gücləndirilmişdir.

Akademik Mahmud Kərimovun elmi-təşkilati fəaliyyəti nəticəsində müasir Azərbaycan elmi beynəlxalq elm infrastrukturlarına sürətlə inteqrasiya olunmuş və xarici ölkələrlə əlaqələrini xeyli genişləndirmişdir. Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının sədri kimi o, dövlət qurumları və ali təhsil müəssisələrində elmi-tədqiqat proseslərinin effektiv koordinasiya edilməsi və əlaqələndirilməsi prosesinə də öz töhfələrini vermiş və nəticədə yeni-yeni elmi nailiyyətlərin əldə olunmasına zəmin yaranmışdır.

Mahmud Kərim oğlu Kərimovun akademiyada işlədiyi müddət ərzində akademiyanın prezidenti kimi respublikanın ictimai-siyasi həyatında mühüm fəaliyyəti ilə diqqəti cəlb etmişdir. O ölkə daxilində baş verən mühüm sosial mədəni hadisələrə münasibətdə həmişə yüksək vətəndaş və ziyalı mövqeyi nümayiş etdirmişdir. Mahmud müəllimin dünya azərbaycanlılarının əlaqələndirmə şurası idarə heyətinin sədri kimi fəaliyyəti də olduqca mənalı və səmərəli keçmişdir. Akademik Mahmud Kərimovun zəngin elmi və elmi təşkilatçılıq fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş və alim, Azərbaycan elminin inkişafında göstərdiyi yüksək xidmətlərinə görə müstəqil Azərbaycan respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Mən ilk dəfə Mahmud müəllimlə o, akademiyanın prezidenti seçildikdən bir neçə ay sonra tanış oldum. Görüşdə zamanı Mahmud müəllimi akademiyanın prezidenti seçilməsi münasibətilə təbrik edərək ona bu yüksək vəzifədə uğurlar arzu etdim, daha sonra 2001-ci il iyulun 1-dən 31-ə qədər Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Azərbaycan alimlərinin birlikdə hazırladığı beynəlxalq İNTAS proqramının təsdiqi ilə əlaqədar Fransanın Totavel şəhərində keçirilən Beynəlxalq konfrans haqqında Mahmud müəllimə geniş məlumat verdim. Qeyd etdim ki, Azərbaycanın dünya şöhrətli Azıx, Tağlar, Qazma, Buzeyir və digər düşərgələrində aparılan arxeoloji tədqiqatlar zamanı tapılmış maddi mədəniyyət qalıqlarının elmi tədqiqi Avropa alimlərinin diqqət mərkəzindədir. Məhz buna görə də mən Fransada keçirilən beynəlxalq konfransda həmin proqramın Azərbaycan üzrə əlaqələndiricisi seçilmişəm. Elmi proqramın əsas məqsədi son 50 ildə Azərbaycan və digər ölkələrin ərazisindən tapılmış maddi mədəniyyət qalıqlarını arxeologiya elminin müasir səviyyəsində tədqiq etmək və paleolit dövrü insanlarının miqrasiya prosesini öyrənmək və həmin nailiyyətləri dünyanın geniş elmi ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Mahmud müəllim bu münasibət ilə məni təbrik etdi və aparılacaq elmi araşdırmalara kömək etmək üçün hər cür şəraitin yaradılacağını bildirdi. Məhz bunun nəticəsi olaraq 2002-ci il iyunun 15-də akademiyanın Rəyasət Heyətində mənim beynəlxalq İNTAS proqramı üzrə aparılacaq elmi tədqiqatların istiqamətləri haqqında elmi məruzəmi Rəyasət Heyətində dinlənməsini məsləhət gördü. Rəyasət Heyətində mənim İNTAS proqramı üzrə aparılacaq tədqiqatlar geniş müzakirəyə səbəb oldu və aparılacaq elmi tədqiqat işlərinin səmərəli keçməsi üçün mühüm qərarlar qəbul olundu. Məhz bunun nəticəsi olaraq 2002-ci il sentyabrın 7-dən oktyabrın 1-ə qədər Avropa alimlərindən 25 nəfər professor Anri dö Lümley başda olmaqla mənim dəvətimlə Bakıya gələrək Azərbaycanın dünya şöhrətli Azıx, Tağlar, Qazma, Buzeyir və digər abidələrdən tapılmış arxeoloji, paleontoloji tapıntıları kompleks şəkildə tədqiq etməyə başladılar. 2002-ci il sentyabrın 15-də Mahmud müəllim öz iş otağında məni və Avropa alimlərini qəbul edərək bizim fəaliyyətimizi yüksək qiymətləndirdi və elmi tədqiqat işlərinin səmərəli keçməsi üçün akademiyanın əlaqədar təşkilatlarına öz tapşırıqlarını verdi. Məhz bunun nəticəsi olaraq 2001 -2005-ci illərdə Avropa alimləri ilə apardığım birgə tədqiqat işləri nəticəsində Azərbaycanın dünya şöhrətli Azıx paleolit düşərgəsində ibtidai insanların məskunlaşma tarixinin 2,5 milyon ilə bərabər olması elmi faktlarla sübut olundu. Bununla yanaşı Azərbaycanın paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarını insanın meydana gəlməsi inkişaf etməsi problemlərinin tədqiqində mühüm əhəmiyyətə malik olması Avropa alimləri tərəfindən yekdilliklə təsdiq olundu. Eyni zamanda Azıx paleolit düşərgəsindən tapılmış ayrı-ayrı arxeoloji mədəniyyətlərə aid maddi mədəniyyət qalıqlarının insanın meydana gəlməsi, inkişaf etməsi problemlərini tədqiqi üçün əvəzsiz arxeoloji mənbə olduğu və paleolitdə miqrasiya problemlərinin tədqiqindəki müstəsna əhəmiyyətə malik olması təsdiq olundu.

Mahmud Kərimovun 12 illik Akademiya prezident olduğu müddət ərzində onunla müntəzəm olaraq görüşər və əldə olunmuş elmi nailiyyətlər haqqında fikir mübadiləsi aparardım. O, hər həftənin cümə günləri akademiya əməkdaşlarını qəbul edər, onların problemləri ilə maraqlanar və özünün yüksək mədəniyyəti ilə hamını heyran edərdi. Mahmud müəllimin qapısı açılarkən o ayağa qalxar, hər bir işçini irəliyə gedərək qarşılayar və söhbət bitdikdən sonra yenidən ayağa qalxıb həmin işçini yola salardı. Mahmud Kərimov yüksək mənəvi əxlaqi keyfiyyətlərinə görə akademiya əməkdaşlarının böyük ehtiramını qazanmışdı.

*(Davamı 7-ci səhifədə)*

(Əvvəli 5-ci səhifədə)

# Mənalı həyat yolu

O, akademiyada olan bütün tədbirlərdə və beynəlxalq konfranslarda şəxsən özü iştirak edər və tədbirlərin səmərəli keçməsi üçün öz tapşırıqlarını verərdi. Mahmud müəllimin insanları yüksək diqqət və qayğı ilə dinləyərək onların yüksək elmi fəaliyyətinin təmin olunması üçün işgüzar elmi mühitin yaradılmasını özünün fəaliyyətində əsas stimul hesab edərdi. Prezidentin danışığı, insanları mehribancasına qəbul edib, səbirlə dinləməsi, problemlərin həllində uzaqgörənliyi və çıxış yolu tapıb onlara şərait yaratması hamını valeh edirdi və məhz buna görə də onun bu kimi xüsusiyyətlərini biz unuda bilmirik.

Təəssüf ki, Mahmud Kərimov yaradıcılığının çiçəkləndiyi bir dövrdə 2013-cü il fevralın 10-da qısa sürən xəstəlikdən sonra dünyasını dəyişdi. Onun dəfn mərasiminə gələnlər göz yaşına qərq olmuşdurlar, heç kəs inanmırdı ki, Mahmud müəllim həyatdan getmişdir. Lakin bu gün, onun vəfatından beş il ötdükdən sonra biz inanırıq ki, onun idarə etmək məktəbi, təşkilatçılıq bacarığı, yüksək mədəniyyəti elm adamlarının və xalqımızın heç vaxt yadından çıxmayacaq.

***Əsədulla Cəfərov***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor***

**Elm.- 2018.- 19 oktyabr.- S.7.**